Folklorşünas alim Əli Şamilin "Qaşqaylar və onların folkloru" kitabını oxuculara təqdim edirik

əvvəli ötən saylarımızda

Qaşqaylar və onların folkloru



Hayna, lay-lay

Bu dərə başdan gələr,
Süzülür daşdan gələr.
Nəqarət
Hayna, lay-lay,
Hayna, lay-lay.
Hər kimin yarı vardır,
Səhər obaşdan gələr.
Nəqarət
Hayna, lay-lay,
Hayna, lay-lay.
Əkin əkilən yerdən,
Korza (tək, kərdi) çəkilən yerdən.
Nəqarət
Hayna, lay-lay,
Hayna, lay-lay.
Üzün döndər, bir öpəm
Zülfün bükülən yerdən.
Nəqarət
Hayna, lay-lay,
Hayna, lay-lay.
Bu əkin əkin olmaz,
Eşq olu (odu) sakin olmaz.
Nəqarət
Hayna, lay-lay,
Hayna, lay-lay.
Varı aləm yığılsa,
Öz yarim təkin olmaz.
Nəqarət
Hayna, lay-lay,
Hayna, lay-lay.

Toplayan: Zəhra Əlirza qızı Tahirlər, 29 yaşlarında, orta məktəb müəllimi, göndərən Ərsalan Mirzəyi. Ərəb əlifbasından Latın əlifbasına çevirən Sami Sərdarimilli.

UŞAQ ŞEİRLƏRİ

– Develər handan gələr? (hardan?)
– Sərvistandan gələr!
– Nəmənə yiyər?
– Şirə-şərbət!
– Nəmənə siçar?
– Xurma- xərək

Kar Ahəng

Elim şer, elim şer.
Şer, gəl mənə məded ver.
Məded verənim yoxdur,
Gəlib gidənim çoxdur.
Çayı içənim çoxdur,
Qəylan çəkənim çoxdur,
Məded verənim yoxdur.
Elim şer, elim şer,
Şer, gəl mənə məded ver.
Elim-elim əvrişim (ipək),
Əlimdəki göy quşum,
Üçdü geddi Təbrizə,
Haçan gələr, Novruza?
Kakam (qağa, böyük qardaş) girdəg içində,
Əli gəlin saçında.
Elim şer, elim şer,
Şer, gəl mənə məded ver.
Məded verənim yoxdur,
Gəlib gidənim çoxdur.
Çayı içənim çoxdur,
Qəylan çəkənim çoxdur,
Məded verənim yoxdur

Sicillama-Təkərləmə

Mətəlların başlangıcı
Mətəl-mətəl mətinizə,
İki sıçan götünüzə.
Biri zərdə (zil qara), biri çərmə (ağ və boz rəngin qarışığı, yəni həmin rəngdə olan al və ya eşşək),
Mindim çərmə kindinə (kürəyinə, belinə),
Çaptım Kuşan yoluna,
Kuşan yolu dərvaza,
Ayı gördüm yer qaza.
Suğan vərdim souttum (yaşartdım, gözünü yaşartmaq),
Alma vərdim ovutdum (ovuldum),
Gətdim gördüm:
Şah qızı qalı toxur,
Üstündə bülbül oxur,
Gördüm ki, bir palandır.
Altında bir Qurandır.
Oxuyanda gördüm ki,
Vari gəplər yalandır (gəp: söhbət).

YANILTMACLAR (Dil oyunları)

Tacı bacı, sac sizdə?
Seyisin səkiz sarı arrıq sirçə şorbası.
Deve doğdu adam gətirdi, ya gedər geri baxar.
Toplayıb göndərən: Ərsalan Mirzəyi, 42 yaşında, ali təhsilli.
Ərəb əlifbasından Latın əlifbasına çevirən Sami Sərdarimilli

TAPMACALAR (Mətəllər)

Aldım bir dana, açdım min dana (Nar).
Aldım qazan, atdım quyruq. Yeridi qazan, qaldı quyruq
(Ayaqqabı və ayaq).
Atdan üzə, ildən alçaq (At həgəri – at yəhərі).
Ayaqdan ayaq açar, dağdan dağa qaçar, qulaği göyə çatar,
dişləri torpağa yatar (Bulud).
Ay çıxdı üçə çıxdı, sədəfdən cücə çıxdı, on ikki yumurtadan,
üç üz altmış beş cücə çıxdı (il, ay və günləri).
Bazarda qərədir, əvdə qırmızı (Çay).
Beş kaka (qağa, qardaş) bir quyuyu daşlar (Ağıza yemək
aparan əl və barmaqlar)
Biz biz idik, üz qız idik, bizi üzdülər, İpə düzdülər (Qamışdan düzəldilmiş çətən).
Burda atdım qilici, Heləbdə oynar ücü (İldırım).
Otaydakı dərvişlər, bəskə nəvərd vurmuşlar çənnə çəvil
(çox danışan) olmuşlar (Dişlər).
Çilə (çiləmək: səs vermək) çilin gorruna, ölü ölün goruna,
Bağdaddan bir quş gəlir, poxu ölün goruna (Arı və onun balı).
Əlif birdir, lam ikki,
Payla (piyalə) birdir, cam ikki.
Əl varıdır, qıç yoxi.
Qarnı irtiq, can yoxi (Kəpənək).
Əlimnən əkərəm, dilimnən biçərəm (Məktub).
Əlim ətdə, başım g...ə (Keçi sağmaq).
Əlinən tutmag olmaz, gözünən görmək (Yel).
Əli var, qanı yox (Arı).
Əlif birdir, lam ikki,
Payla (piyalə) birdir, cam ikki,
Hanı quşdur o quşdan,
Yumurtası on ikki (İl).
Hey həssələr, hey həssələr, hanı quşdur bağarsağın dəstələr (İlbiz)
İki qonşu bir birini görməz (Göz).
Xatın xatınlar ayağında var corablar, qoyma başına ki, sənı xarablar (Toyuq)
On ikki qardaş: üçü vurar gələr, üçü vurar aparar, üçü cənnət bağıdır, üçü ondan yağıdır (İlin fəsilləri).
O nədir ki, öz dövrünə dolanır (Su).
O nədir ki, qıçı yoxdur, qaçayır (İlan).
O nədir ki, hər zadnan allanır (Uşaq).
O nədir ki, yerdən göyə bulanır (Tüstü).
O nədir ki, göydən yerə sallanır (Yağış).
O nədir ki, yüz il qalsa qarımaz (Dünya).
Oba küçdü, babamı? kələ qılıcı qaldı yurtda (Qarım: çadır qurularkən içərisinə yağış suları dolmasın deyə ətrafında qazılan kiçik arx).
O tay təxtə, bu tay təxtə, arasında köla bəxtə (Ağız və dil).
O taydakı dərvişlər,
Dəvrə dəli qonmuşlar,
O tayı kəmər,
Bu tayı kəmər,
Madyan dutar,
Qulun əmər (Bal).
Ocağa düşər yanmaz,
Suya düşər yaş olmaz (Kölgə).
Üç oyunçu, 12 tamaşaçı (Saat).
Üzü sarıdır zəfəran təkin,
İçi ağdır un təkin,
Oturmuşdur xan təkin (İydə).
Uzun quyu, dum-dum,
Suyun içən ölər,
İçməyən ölməz (Tüfəng).
Üstü köynək biçməli, altı şərbət içməli (Qoyun).
Yerə vursam qirilər, içindəki qirilməz (Qarpız və dənələri).

Tapmacalar Ərsalan Mirzəyinin 2018-ci ildə Şirazda
nəşr etdirdiyi "Qaşqay tapmacaları" kitabından alınmışdır.

İNANCLAR

1. Hər kim barmağını qəbristana uzadır, gerək barmağını
dişləyə.
2. Gecələr qəbristana gedməzlər, çünkü inanırlardı mərizlənirlər (xəstələnirlər).
3. Ölü birimki (birinci) gecə qəbr içinə qoyulursa, oraya
gerək su çatmıya (çatmaya). O gecə yağış olsa, ölünün qəbri üstünə
bir çarqad atırlardı.
4. Gecədə ağac altına gedməzlər.
5. Gecədə aynaya baxmazlar, inanırlar adam dəli olur.
6. Pəncşənbe, cüma gecəsi soğan yemirlərimiş, çünki deyillərdi
ölü için xub (yaxşı) dəyil. (Yəni həmin gecələrdə
ölənlərin ruhları doğmalarının evinə gəlir. Ruhlar da soğan,
sarımsaq və s. kəskin iyləri sevməz. Gerək həmin günlər evlərdə
xoş ətirli xörəklər bişirilə - Əli Şamil)
7. Ölü torpaqlamağ için (dəfn edilənin üstünü torpaqlamaqda)
heç kimsə uxuda (yuxuda) gerək qalmaya.
8. Bir kenddə ölüyü mezara qoyulduğu zamanda, başqa
adamların uxuda qaldığı uğurlu değil.
9. Gün batanda heç kimsə uxuda (yuxuda) gerək olmaya
(Gerək şər vaxtı, yəni gün batan vaxt heç kim yatmaya, oyaq ola
- Əli Şamil).
10. Hər küçük uşaq ki qırx günü tükənməyib (qırxı çıxmayıb), bir Quran, ya duz, ya bıçaq qoyurlarımış yanına.
10. Tazza uşağı olunmuş bir arvad çaydan geçəndə bir kişi biçağınan çayın suyunu kəsirdi və arvad (bundan sonra kişinin) dalıçı gedirmiş.
181
11. Ala əvə gələndə uşaq uxuda (yuxuda) olsa, onu uxudan (yuxudan) oyartmadan dik tutarlar (elə bil ayaq üstə dururmuş kimi), ta ata yornaqlığını almaya (ata gedib bir yerdə olurmayana, uzanmayana kimi). Yəni atanın yornaqlığı (yorğunluğu) uşağa keçməsin.
12. Bir uşağın çilləsi çıxməkdən ləri (henüz qırx gün olduğundan geçməmiş), heçkim bu əvə gedməzdi. Birdən gedsəydi,
əv əyəsi o adamdan bir üzüg. ya muncuq alırdı, onu
atırlardı su içində verirlərdi uşağa içə.
13. Cuma günü un kessəsini açırlardı. Çünkü inanırladı
cuma günü bir ağır ov bərəkətli gündür və un kessəsinin ağzı bu
gün açılanda unu tez tükənməz, bərəkətli olar.
14. Dovar (davar) dağda itirdi, (davarın sahibi olan) əvi?
arvadı niyyət edirlədi və "Qurdun-quşun ağzını bağladım" -deyib
öz çarqatını düğün bağleyrdi. Garçəkdən inanırlardı bu işinən o vəhşi hayvanın ağzını bağleyrlər.
15. Hər neççə uşaq hər xanevadada (ailədə) var, bayram
günü ocaq düzedirlərdi, sora (sonra) bunları alışdırırdılar.
16. Gecələr ağarantı (ağartı, süd məhsulları), un, duz evdən
yazıya (çölə, bayıra, başqasına) verməzlər.
17. Gecə bişirmiş yeməkdən artıq qalanda, yeməyəndə,
səhərə saxlayanda gecə onun üstünə innə (iynə), ya kömür qoyurlardı, ta səbah yeyə bilələr (Yəni gecə cin, şeytan, şər qüvvələr
o yeməyə toxunmayalar).
19.Gecə saç darasan uğursuzluq gətirir.
20.Gecə aynaya baxsan uğursuzluq gətirir.
21. Hicri-qəməri (ay ilinin) 21-də yeni işə başlamazlar,
səfərə çıxmazlar, libas (paltar) yumazlar. Deyərlər "o gün xub
değil, nəhsdir (uğursuz)".
22. Şənbə gününü uğursuz gün sayırlar. Həmin gün ölüm
və ya ağır bir iş olsa, elə düşünərlər ki, qarşıdakı həftənin şənbə
günü uğursuz bir hadisə olacag.
23. Gəlini bovası (babası, atası) evindən ata mindirib kürəkən
(bey) evinə göndərəndə atın tərkinə bir oğlan uşağı qoyar
lar. Gerək o oğlan uşağı kürəkən evinə çatananzə, atdan yerə
düşməyə. İnanırlar ki, belə gəlinin əvəlki uşağı, oğul olar.
24. Qurbanlıq quzusunun sümüklərini yazıya (çölə, eşiğe) atmazlar,
torpağı qazıb basdırarlarmış ki, it ya gurba (pişik) yeməsin.
26. At qılından saç təkin (kimi) hörüb uşağın libası üstünə
tikirlər ki, ona cin, ya şeytan yexin olmaya (doxunmasın), göz deyməsin.
27. Tazza gəlin gələndə onu üç gün girdəkdə (gəlin hicləsi;
gərdək) saxlayırlar ki gəlininən kürəkən orda qala (qalsın).
Çünkü deyillər gəlin çilləlidir (hənüz 40 gün gəlin olduğundan
gaçməmiş). Buna göra ordan tez çıxsa, uğursuzluk gətirər.
28. Gəlin üç gün girdəkdə qalandan sora onu qayn bovası
(qaynatası) evinə aparırlar və onun cilovunda (önündə) bir quzu,
ya oğlaq qurbanlıq edirlər. Qurbanlığın başını laşından ayırırlardı
və gəlin bu ikinin arasından gəçirdi. Gerək ayaqları bu
heyvanın qanına bulana.
29. Qədim qaşqaylar cinnə və Ala çox inanırlardı. Uşağı
cindən qorumak üçün üstünə, yanına dəmir bağlayarlardı (Al:
qırmızı cin).
30. Bir arvad uşaqı olanda (doğanda) ətrafına dəmir düzər,
yanında tüfən atırlardı (atəş açarlardı), at kişnədərlər ki, Al qorxa,
oraya gəlməyə. Belə inanırlardı ki, Al gəlmiş doğan arvadı apara.

ardı var...